Valentich, M. (2011). Feminist theory and social work practice, in F. J. Turner (ed.) Social Work Treatment: Interlocking Theoretical Approaches, 5th edn. New York: Free Pess.

Walby, S. (1990). Theorizing Patriarchy. England, Blackwell.

Whelehan, I. (1995). Modern Feminist Thought. Finland, Edinburgh University Press.

# YUNESKO-nun Multikultural dəyərlərin qorunması və təşviqinə dair fəaliyyətində Azərbaycanın iştirakı

**Zaur Məmmədov**

**Doç. Dr., Lənkəran Dövlət Universiteti, Azərbaycan Respublikası, Az 4200, Lənkəran şəhəri, General Həzi Aslanov xiyabanı - 50**

**E mail: mammadovzaur@mail.ru, mob: +994557871999**

## Annotasiya

Azərbaycan Respublikası dövlət müstəqilliyi bərpa etdikdən sonra beynəlxalq birliklərə və təşkilatlara inteqrasiya olunması beynəlxalq münasibətlər tarixinin öyrənilməsi üçün əlverişli imkanlar yaratmışdır. Yaranmış bu şəraitdən dəyərləndirərək Azərbaycanın beynəlxalq təşkilatlarla əməkdaşlığının obyektiv olaraq təhlil süzgəcindən keçirilməsi qarşısında duran əsas vəzifələrdən biridir. Qədim tarixə malik ölkəmiz tolerantlıq ve multikultural dəyərləri ilə həmişə seçilmişdir.

Bu məqsədlə BMT-nin ixtisaslaşmış təşkilatı olan YUNESKO ilə əməkdaşlığı Azərbaycan Respublikasının xarici siyasətində mühüm yerlərdən birini tutur. Mədəni müxtəliflik cəmiyyətin (insanlığın) ən mühüm əlamətlərindən biridir və cəmiyyətin qalıcı inkişfı üçün mühüm faktordur. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və digər beynəlxalq sənədlərdə elan edilmiş insan hüquqlarının və əsas azadlıqlarının tam həyata keçirilməsi üçün mədəni müxtəlifliyin qorunmasının əhəmiyyəti danılmazdır. Bununla bağlı mədəni özünüifadə müxtəlifliyinin yox olma və ya ciddi ziyan çəkmək təhlükəsinə qarşı imzalanan konvensiyalarda Azərbaycanın iştirakı çox mühüm əhəmiyyət kəsb edir.

**Açar Sözlər:** Tolerantlıq, multikulturalizm, əməkdaşlıq, akt, siyasət, müxtəliflik

## Сохранение мультикультуральных ценностей ЮНЕСКО и участие Азербайджана в функционировании обнадёживания

## РЕЗЮМЕ

Бесспорная роль ЮНЕСКО в решении проблем, возникающих в процессе развития мировых культур. Организация разработала единые стандарты взаимоотношений между культурами, основываясь на глобальный консенсус по отношению принципа равенства культур в своих некоторых документах, особенно в таких как «Декларация о принципе выносливости», «Конвенция о сохранении и обнадёживании культурного саморазвития».

В этом направлении Азербайджанская Республика утвердила документы, подписанные ЮНЕСКО, с этой целью президент страны подписал определённый приказ, был организован ряд мероприятий и были проведены соответствующие работы в нашей стране. В настоящее время в рамках конвенции реализуется проект «Культурное разнообразие - наше культурное единство».

**Ключевые слова:** толерантность, сотрудничество, акт, политика, разнообразие.

## Participation of Azerbaijan in the activities of UNESCO on protection and promotion of Multicultural values

**Sumarry**

The role of UNESCO in the solution of problems arising on the development of world culture is undeniable. The organization has developed unit standards of mutual relations between cultures in its documents, particularly "Declaration on the principle of tolerance", "Convention on the Conservation and Promotion of Cultural Self-Diversity" based on global consensus of the principle of equality of cultures. In this direction, the Republic of Azerbaijan verified the documents signed by UNESCO and for this purpose; the President of the country has signed a relevant decree, series of events have been organized and relevant work has been done. Currently, the project "Cultural diversity is our cultural unity" is being implemented within the framework of the convention.

**Keywords:** Tolerance, Multiculturalism, Cooperation, Statement, Politics, Diversity

Azərbaycan və YUNESKO əməkdaşlığı. YUNESKO dünyanın təhsil, elm, mədəniyyət, informasiya və kommunikasiya sahəsindəki əməkdaşlıqlarının ən böyük hökumətlərarası forumudur. Hazırda YUNESKO 195 ölkə və 10 Assosiativ Üzvdən ibarətdir. Həmçinin aparıcı dövlətlərarası təşkilatlarla (ATƏT, Afrika Birliyi Təşkilatı, Ərəb Dövlətləri Liqası, İSESKO, TÜRKSOY və s.) da geniş əlaqələrə malikdir. Bu məqsədlə Azərbaycan Respublikasının YUNESCO ilə əlaqələrinin əsas istiqamətlərini və inkişaf dinamikasının araşdırılması xüsusi aktuallıq kəsb edir .

Azərbaycan Respublikası müstəqilliyini bərpa etdikdən sonra 3 iyun 1992-ci il tarixində YUNESKO-ya üzv qəbul edilmişdir.1993-cü ilin dekabr ayında Prezident Heydər Əliyevin Fransa Respublikasına rəsmi səfəri çərçivəsində Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev YUNESKO-nun baş direktoru Federiko Mayorla görüşmüşdür.

Təşkilatın Nizamnaməsinin 7-ci maddəsinə əsasən, üzv-dövlət təhsil, elm və mədəniyyətlə məşğul olan qurumların fəaliyyətini YUNESKO-nun işi ilə əlaqələndirmək üçün ilk növbədə Milli Komissiya yaratmaq yolu ilə müvafiq tədbirlər həyata keçirməlidir. Bu səbəbdən YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyasının yaradılması üçün lazımi addımlar atılmış və Azərbaycan Respublikası Prezidenti Heydər Əliyevin 21 fevral 1994-cü il tarixli sərəncamına uyğun olaraq, Azərbaycan Respublikası Xarici İşlər Nazirliyiyanında "YUNESKO üzrə Azərbaycan Respublikasının Milli Komissiyası" yaradılmışdır. Azərbaycan Respublikası Prezidenti cənab İlham Əliyevin 15 sentyabr 2005-ci il tarixli 1006 saylı sərəncamı ilə "Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi" sözləri "Azərbaycan Respublikasının Prezidenti" sözləri ilə əvəz edilmişdir və Milli Komissiyanın tərkibi müəyyənləşdirilmişdir. Ölkə başçısının 10 mart 2015-ci il tarixli Sərəncamı ilə Milli Komissiyanın tərkibində bir sıra dəyişikliklər edilmişdir. Həmçinin Azərbaycan Respublikası Prezidentinin 11 iyul 2016-cı il tarixli, 2193 saylı Sərəncamı ilə 2005-ci il Sərəncamına növbəti dəyişikliklər edilmişdir .

Müasir dünya siyasətinin ən mühüm meyillərindən birini beynəlxalq hökumətlərarası, qeyri-hökumət təşkilatlarının sayının sürətlə artması təşkil edir. XX əsrin 80-ci illərinin əvvəllərindən indiyədək onların sayı 1 mindən təqribən 5 minə qədər artmışdır. Bu artımı bir tərəfdən çoxtərəfli institutların rolunun təbii olaraq artması ilə əlaqələndirmək, digər tərəfdən isə bunu qlobal idarəetmə mexanizmləri yaratmaq yolu ilə qloballaşan dünyada dövlətlərin öz təsir dairələrinin kiçilməsini kompensasiya etmək cəhdləri ilə də izah etmək mümkündür. Bəzi ekspertlərin fikrincə, qlobalizasiya beynəlxalq idarəetmə problemini aktuallaşdırır və dövlətin tənzimləyici gücünü azaldır. Bunun özü də beynəlxalq təşkilatların mədəni müxtəliflik və mədəniyyətlərarası dialoqda getdikcə artmaqda olan rolunu şərtləndirir. Bu gün dünyada müxtəlif mədəniyyətlər arasında dialoqun inkişaf etdirilməsində beynəlxalq təşkilatlar - BMT, Avropa Şurası, ATƏT, İKT, YUNESKO, İSESKO və b. mühüm rol oynayırlar .

Multikultural dəyərlərin formalaşmasında YUNESKO-nun rolu. Bəşər tarixində ilk dəfə müxtəlif dillərdə danışan və fərqli dinlərə inanan insanları birləşdirən imperiyaların yaranması ilə etnoslararası, dinlərarası və mədəniyyətlərarası münasibətlər dövlətlərin daxili və xarici siyasətində xüsusi aktuallıq kəsb etməyə başladı. İslamın yayılması ilə müsəlman dünyasında tolerantlıq, multikulturalizm elementləri yeni impuls alsa da, bu proses ardıcıl və dönməz deyildi. Qədim Şərqdə yaranmış cəmiyyətlərdə müəyyən tolerantlıq elementləri mövcud olmuşdur. Orta əsrlərdə Müsəlman İspaniyası, Osmanlı, Səfəvi dövləti, Hindistandakı Moğol İmperiyası kimi qeyd etdiyimiz xüsusiyyətləri ilə fərqlənən dövlətlər olsa da, müxtəlif radikal ideologiyaların hökm sürdüyü, hər hansı fərqliliyin inkar olunduğu dövlət qurumları üstünlük təşkil edirdi.

Cəmiyyətdə ictimai-siyasi və iqtisadi münasibətlərin nizamlanması dövlətin qarşısında duran əsas məqsədlərdən biridir. Hər bir dövlətin daxili siyasətinin əsas məqsədlərindən biri cəmiyyətdə sabitliyin və inkişafın təmin edilməsidir. Bu məqsədin uğurla həyata keçirilməsinin əsas şərtlərindən biri isə cəmiyyətdə müxtəlif mədəniyyətləri təmsil edən etniklər arasında harmoniyanın olmasıdır. Bugün dünyada mövcud olan dövlətlərin az bir qismi istisna olmaqla əksəriyyəti polietnik dövlətlərdir. Əhalisinin 5 %-dən artığı əsas etnik kütlədən fərqlənirsə, bu dövlət polietnik dövlət sayılır.

Tarixi inkişaf prosesində demokratik inkişaf yolu tutmuş bir çox dövlətlərin daxili siyasətində multikultural elementlər artmağa başladı. Bunun səbəbi müasir dövrdə dünyada gedən qloballaşma və inteqrasiya prosesləri ilə əlaqədar olaraq cəmiyyətin idarə olunmasında multikulturalizmin xüsusi önəm daşımasıdır. Müasir dövrdə inkişaf etmiş və inkişaf etməkdə olan dövlətlərin əksəriyyətinin daxili siyasətində multikulturalizmin elementləri bu və digər dərəcədə təmsil olunmuşdur. Bu məqsədlə multikultural dəyərlərin inkişafına xidmət edəcək bir sıra bəyannamələr verilmiş və konvensiyalar imzalanmışdır.

"Dözümlülük prinsipi haqqinda bəyannamə" UNESCO-nun 25 oktyabr - 16 noyabr 1995-ci ildə Paris şəhərində baş tutmuş 28-ci sessiyasında imzalanmışdır. Bəyannaməni qəbul edən dövlətlər, cəmiyyətimizdə sülhun

genişlənməsi, xalqların iqtisadi və sosial rifahının təmin olunması üçün tolerantlıq prinsiplərinin vacibliyini elan edirlər. Bəyannamənin 1-ci maddəsində tolerantlığa bu cür anlayış verilmişdir: Tolerantlıq dünyada mövcud olan mədəniyyətlərin, onların öz zənginlikləri və müxtəlifliyi ilə qəbul olunması, tanınması və hörmət olunmasıdır .

Tolerantlıq müxtəlifliyin harmoniyasıdır və yalnız mənəvi öhdəlik deyil, həmçinin siyasi və hüquqi məcburiyyətdir. Tolerantlıq sülhun təməli olmaqla, hər bir hüquqi və demokratik dövlətin, insan hüquqlarının və pluralizmin əsas açarıdır.

Dövlət müstəvisində tolerantlıq, qanunvericilik, adminstrativ və məhkəmə fəaliyyətində ədalətlilik prinsipinin qorunmasını, həmçinin hər bir şəxsə bərabər sosial-iqtisadi şansların yaradılmasını tələb edir. Əks halda cəmiyyətdə düşmənçilik və fanatizm ruhu genişlənə bilər. Bəyannaməni qəbul edən dövlətlər, qeyri-tolerantıq təhlükəsini ictimaiyyətə daha aydın çatdırılması üçün, hər il 16 noyabr tarixini "Dünya Tolerantılq Günü" kimi qeyd olunmasını elan edirlər.

Qeyd etmək istəyirəm ki, Azərbaycan Respublikasının I vitse-prezidenti, Heydər Əliyev fondunun prezidenti Mehriban Əliyevanın fəaliyyəti nəticəsində Azərbaycan-YUNESKO münasibətləri ən yüksək inkişaf səviyyəsində yüksəlib. 1995-ci ildən etibarən, rəhbərlik etdiyi Azərbaycan Mədəniyyətinin Dostları Fondunun xətti ilə festivallar, sərgilər, mədəniyyət tədbirləri və konsertlər təşkil edilməklə, xanım Mehriban Əliyeva ölkəsinin mədəni irsinin təbliğinin, onun milli və regional səviyyələrdə mühafizəsinin təmin olunması sahəsində böyük xidmətlər göstərmişdir .

Hər kəs ifadə azadlığı hüququna malikdir; bu hüququ, sərhədlərdən asılı olmadan, şifahi, yazılı və ya çap olunmuş şəkildə, sənət əsəri formasında, yaxud şəxsin özünün seçdiyi hər hansı media vasitəsilə hər cür məlumat və ideyaları axtarmaq, almaq və yaymaq azadlığını özündə ehtiva edir. 1966-cı il tarixli Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktın (MSHBP) 19-cu maddəsində və 1950-ci ildə imzalanmış İnsan Hüquqları və Azadlıqların Müdafiəsi haqqında Avropa konvensiyasının 10-cu maddəsində də ifadə azadlığına yer verilmişdir .

Mədəni müxtəliflik cəmiyyətin (insanlığın) ən mühüm əlamətlərindən biridir və cəmiyyətin qalıcı inkişfı üçün mühüm faktordur. Ümumdünya İnsan Hüquqları Bəyannaməsi və digər beynəlxalq sənədlərdə elan edilmiş insan hüquqlarının və əsas azadlıqlarının tam həyata keçirilməsi üçün mədəni müxtəlifliyin qorunmasının əhəmiyyəti danılmazdır. Bununla bağlı mədəni özünüifadə müxtəlifliyinin yox olma və ya ciddi ziyan çəkmək təhlükəsinə qarşı bu konvensiya çox mühüm əhəmiyyət kəsb edir. Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqinə dair Konvensiya 20 oktyabr 2005-ci ildə UNESCO-nun 33-cü sessiyasında qəbul olunmuş və 18 mart 2007-ci ildə qüvvəyə minmişdir. Azərbaycan Respublikası bu konvensiyaya 26 noyabr 2009-cu ildən (№ 918-IIIQ) ölkə prezidenti İlham Əliyev tərəfindən imzalanmışdır .

Multikultural dəyərlərin qorunması və təşviqinə dair fəaliyyətdə Azərbaycanın iştirakı və mədəni özünüifadə. Bu konvensiya 15 may 2010-cu ildən etibarən Azərbaycan Respublikasına münasibətdə qüvvəyə minmişdir. Bununla əlaqdədar ölkədə bir sıra tədbirlər təşkil olmuş və müvafiq işlər aparılmışdır. Hazırda konvensiya çərçivəsində "Mədəni müxtəlifliyimiz mədəni vəhdətimizdir" layihəsi həyata keçirilməkdədir.

Nədir mədəni müxtəliflik? Ayrı-ayrı qrupların və cəmiyyətlərin mədəniyyətlərinin öz ifadəsini tapdığı müxtəlif formalardır. Bu özünüifadə formaları qruplar və cəmiyyətlər arasında və onların daxilində ötürülür.

Mədəni özünüifadə isə ayrı-ayrı fərdlərin, qrupların və ya cəmiyyətlərin yaradıcılığının nəticəsi olan və mədəni məzmun daşıyan özünüifadə nəzərdə tutulur.

Konvensiyanın qəbul olunmasında əsas məqsəd aşağıdakılardan ibarətdir.

•Mədəni özünüifadə müxtəlifliyini qorumaq və təşviq etmək

•Müxtəlif mədəniyyətlərin çiçəklənməsi və qarşılıqlı səmərəli tərzdə bir-birinə sərbəst təsiri üçün şərait yaratmaq

•Mədəniyyətlərarası hörmət və sülh mədəniyyəti naminə bütün dünyada geniş və tarazlı mədəni münasibətləri təmin etmək üçün mədəniyyətlərarası dialoqu təşviq etmək

•Mədəni özünüifadə müxtəlifliyni qorumaq və təşviq etmək sahəsində, xüsusi ilə inkişaf etməkdə olan ölkələrin imkanlarını genişləndirmək məqsədilə tərəfdaşlıq ruhunda beynəlxalq əməkdaşlıq və həmrəyliyi gücləndirmək və.s

Konvensiyanın 2-ci maddəsində ondan irəli gələn mühüm prinsiplər öz əksini tapmışdır.Bu prinsiplər rəhbər başlanğıclardır və aşağıdakılardır:

◎İnsan Hüquqları və əsas Azadlıqlarına hörmət prinsipi

◎Suverenlik prinsipi

◎Bərabər ləyaqət və bütün mədəniyyətlərə hörmət prinsipi

◎Beynəlxalq həmrəylik və əməkdaşlıq prinsipi

◎İnkişafın iqtisadi və mədəni aspektlərinin bir-birini tamamlaması prinsipi

◎Davamlı inkişaf prinsipi

◎Bərabər imkan prinsipi

◎Açıqlıq və tarazlıq prinsipi

Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqi Konvensiyasının mühüm oraqanları, Tərəflərin Konfransı və Hökumətlərarası Komitədir. Tərəflərin Konfransı bu konvensiyanın plenar və ali orqanı hesab olunur. Bu orqanın sessiyası iki ildə bir dəfə və ya üzv dövlətlərin ən azı üçdə birinin Hökumətlərarası Komitəyə müraciəti əsasında fövqəladə sessiyası keçirilir. Hökumətlərarası Komitə isə 18 dövlətin nümayəndərindən ibarət tərkibdə

fəaliyyət göstərir. Onun üzvləri 4 ildən bir olmaqla, Tərəflərin Konfransı tərəfindən seçilir . Hökumətlərarası Komitə, Tərəflərin Konfransı orqanının rəhbərliyi altında fəaliyyət göstərir və onun qarşısında hesabat verir. YUNESKO-nun Katibliyi isə Konvensiyanın oraqanlarına onların fəaliyyətləri zamanı sadəcə köməklik göstərir. Katiblik Tərəflərin Konfransının və Hökumətlərarası Komitənin sənədlərini, habelə onların iclaslarının gündəliyini hazırlayır, qərarlarının həyata keçirilməsinə kömək göstərir və buna dair məruzə edir.

1966-cı il tarixli İqtisadi, Sosial və Mədəni Hüquqlar haqqında Beynəlxalq Paktın 15-ci (a) bəndinə əsasən, iştirakçı dövlətlər hər kəsin mədəni həyatda iştirak etmək hüququnu tanıyırlar. MSHBP-nin 27-ci maddəsi digər şəxslərlə yanaşı, dil azlıqlarına mənsub olan şəxslərin həmin qrupun digər üzvləri ilə birliktə öz mədəniyyət və dillərindən istifadə hüququnu müdafiə edir. Yayım mediasında mədəni və dil rəngarəngliyini əks etdirən pluralizmin qorunması və inkişaf etdirilməsi ifadə azadlığının zəruru（ri komponentidir. YUNESKO-nun 2001-ci il tarixli Mədəni Müxtəliflik haqqında Ümumi Bəyannaməsinin 2-ci maddəsinə əsasən, mədəni pluralizmi təmin edən siyasətlər mədəni müxtəliflik reallığını əks etdirir. Bəyannamənin 6-cı maddəsində qeyd edilir ki, mədəni müxtəliflik, digər vasitələrlə yanaşı, ifadə azadlığı, media pluralizm və çoxdillilik vasitəsilə təmin olunur .

Azlıqların dillərində yayım üçün imkanların yaradılması tələbi yuxarıda adları çəkilən sənədlərin çoxunun tələblərində nəzərdə tutulmuşdur. Avropa Dil Xartiyasının 11-ci maddəsinin 1(g) bəndi iştirakçı dövlətlərdən aydın şəkildə tələb edir ki, "bölgənin və ya azlıqların dillərindən istifadə edən jurnalistlərin və kütləvi informasiya vasitələrinin digər personalının təliminə yardım etsinlər"

Göründüyü kimi, Azərbaycan özünün multikulturalizm siyasətinin həyata keçirilməsində BMT, ATƏT, Avropa Şurası, Avropa Birliyi, İslam Əməkdaşlıq Təşkilatı, UNESKO və digər nüfuzlu beynəlaxalq qurumlarla əməkdaşlığa xüsusi əhəmiyyət verir .

Qlobal mədəni proseslərin idarə edilməsi ilə bağlı səlahiyyətlər BMT tərəfindən faktik və hüquqi olaraq onun profil strukturu olan YUNESKO-ya həvalə edildiyindən dünya mədəniyyətlərinin inkişafı yolunda ortaya çıxan problemlərin həllində bu təşkilatın siyasi rolu danılmazdır. Təşkilat özünün bir sıra sənədlərində, xüsusən 2001-ci ildə qəbul etdiyi mədəni müxtəliflik haqqında ümumi bəyannaməsində əks olunmuş baza prinsiplərə, o cümlədən mədəni müxtəliflik və mədəniyyətlərin bərabərliyi prinsipinə münasibətdə qlobal konsensusa əsaslanaraq mədəniyyətlər arasında qarşılıqlı əlaqələrin vahid standartlarını işləyib hazırlamağı qarşısına məqsəd qoymuşdur.

Nəticədə mədəni hüquqların reyestri daha da genişlənmiş, əsas prinsiplər müəyyənləşdirilmişdir: bir və ya bir neçə mədəniyyəti seçmək (və ya mənimsəmək) və onu sərbəst ifadə etmək; mədəniyyətə əlçatarlıq hüququ; mədəniyyətin nemətlərindən istifadə etmək, o cümlədən bu nemətləri qorumaq; hüququ, mədəniyyətin inkişafına töhfə vermək hüququ; mədəni demokratiyanın təşəkkülünə dəstək verilməsi məqsədlərində bərabər

imkanlar və ayrı-seçkiliyin olmaması; yayılma vasitələrinin və informasiyanın əlçatarlığı hüququ; mədəniyyət sahəsində beynəlxalq əməkdaşlıq hüququ . Bu kontekstdə dil hüquqları və mədəni özünəməxsusluğa hörmətin inkişafına kömək sahəsində YUNESKO-nun fəaliyyəti xüsusi vurğulanmalıdır. Mədəni müxtəliflik dedikdə ayrı-ayrı qrupların və cəmiyyətlərin mədəniyyətinin öz ifadəsini tapdığı müxtəlif yollar nəzərdə tutulur. Mədəni özünüifadə fərdlərin, qrupların, cəmiyyətlərin yaradıcılığının nəticəsi olan, mədəni mahiyyətə malik olan özünü ifadədir. Mədəni müxtəliflik ancaq insan hüquqları və əsas azadlıqları, o cümlədən fərdlərin mədəni özünüifadəni seçmək imkanı kimi hüquq və azadlıqlar təmin olunarsa, qoruna və təşviq oluna bilər. Mədəni müxtəlifliyə və mədəni hüquqlara dair YUNESKO tərəfindən qəbul olunmuş beynəlxalq sənədlər, xüsusən Mədəni müxtəlifliyə dair 2001-ci il Ümumdünya Bəyannaməsi, Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqinə dair 2005-ci il Konvensiyası bu baxımdan mühüm rol oynayır. 2005-ci il Konvensiyası mədəni müxtəlifliyin bəşəriyyətin müəyyənedici xüsusiyyəti olduğunu, onun irsini formalaşdırdığını və hamının rifahı üçün qorunub saxlanılmalı və bəslənilməli olduğunu, insanlar və millətlərin davamlı inkişafı üçün hərəkətverici qüvvə olduğunu təsdiqləyərək, beynəlxalq sənədlərdə elan edilmiş insan hüquqları və əsas azadlıqlarının tam realizəsi üçün onun əhəmiyyətini xüsusi qeyd etmişdir. Konvensiya mədəni özünüifadə müxtəlifliyin qorunması və təşviqinə dair ümumi prinsipləri, tərəflərin hüquq və öhdəliklərini müəyyənləşdirmiş, tövsiyələr irəli sürmüşdür .

İspaniyanın Barselona şəhərində Pen-Kulbun təşkil etdiyi dil hüquqları üzrə beynəlxalq konfransda qəbul edilmiş "Dil hüquqları Ümumi Bəyannaməsi (1996) bütün dilləri kollektiv özünəməxsusluğun ifadəsi kimi, bütün dil icmalarını isə mədəni yaradıcılığın bütün formalarında öz dilindən istifadə, onun qoruyub saxlamaq və inkişaf etdirmək" sahəsində bərabər hüquqlara malik olduğunu qəbul etmişdir . Ümumdünya mədəni irsinin qorunması və saxlanılması beynəlxalq mədəni əməkdaşlığın, YUNESKO-nun əsas vəzifələrindən biridir. Milli və beynəlxalq mədəni dəyərlərin müdafiəsinə görə məsuliyyət məsələsi bir sıra beynəlxalq sənədlərdə öz əksini tapmışdır. Azərbaycan Respublikasının bu siyasəti dəstəkləməsi, multikultural dəyərlərin müdafiəsinə həsr olunmuş konvensiyalara qoşulması multikulturalizmin dövlətin siyasətinin əsas tərkib hissələrindən biri olduğunu göstərir.

Şübhəsiz ki, Azərbaycanın dinamik inkişafında məqsədyönlü siyasi və iqtisadi islahatların, neft strategiyasının, neft-qaz gəlirlərindən səmərəli istifadənin və güclü sosial siyasətin rolu böyükdür. Bütün bunların mərkəzində insan amili dayanır. Hər şey insan üçündür. Onun azadlığını, təhlükəsizliyini, yaşayışını təmin etmək dövlətin əsas vəzifəsidir. Biz öz tarixi köklərimizə, ənənələrimizə bağlıyıq. Bununla belə, dünyaya açığıq. Bizim üçün dözümlülük, tolerantlıq, multikulturalizm təkcə son zamanlar dəbdə olan sözlər deyil. Bu, Azərbaycan xalqının çoxəsrlik həyat tərzi və fəlsəfəsidir. Bu gün ölkəmiz siyasi, mədəni və iqtisadi sahələrdə çox sayda beynəlxalq konfrans, forum və görüşlərin keçirildiyi ölkədir. Bu, qədim ənənələrin müasir meyilidir. Ölkəmizə gələn hər bir qonaq möhtəşəm inkişafla yanaşı,

azərbaycanlıların məxsusi qonaqpərvərliyini və genişürəkliliyini qeyd edir. Bütün bunlar Azərbaycanda multikultural durumun, tolerant mühütün və mədəni müxtəlifliyin dövlət siyasəti ilə yanaşı xalqımızın soy kökündən irəli gəlir.

**Nəticə**

YUNESKO- nun dünya mədəniyyətlərinin inkişafı yolunda ortaya çıxan problemlərin həllində rolu danılmazdır. Təşkilat özünün bir sıra sənədlərində xüsusilə "Dözümlülük prinsipi haqqinda bəyannamə", "Mədəni Özünüifadə Müxtəlifliyinin Qorunması və Təşviqinə dair Konvensiya" larında mədəniyyətlərin bərabərliyi prinsipinə münasibətdə qlobal konsensusa əsaslanaraq mədəniyyətlər arasında qarşılıqlı əlaqələrin vahid standartlarını işləyib hazırlamışdır. Bu istiqamətdə Azərbaycan Respublikası YUNESKO tərəfindən imzalanmış sənədləri təsdiqləmiş, bu məqsədlə ölkə prezidenti müvafiq fərman imzalamış, ölkəmizdə bir sıra tədbirlər təşkil olmuş və müvafiq işlər aparılmışdır. Hazırda konvensiya çərçivəsində "Mədəni müxtəlifliyimiz mədəni vəhdətimizdir" layihəsi həyata keçirilməkdədir.

**İstifadə olunmuş ədəbiyyat.**

1. Dözümlülük prinsipləri haqqında bəyannamə: YUNESKO-nun Baş konfransının iyirmi səkkizinci sessiyasında 1995-ci il noyabrın 16-da Parisdə qəbul edilmişdir /YUNESKO; buraxılışa məsul. R.Abutalıbov.- Bakı, 1999.- 16 s.

2. Kamal Abdulla, Azərbaycanda Multikulturalizm, Biblioqrafiya, Bakı-2016, 503 səh.

3. Mehriban Əliyeva, Tərəqqi və yüksəliş yolları ilə, Bakı-2014, I cild, 417 səh.

4. Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqinə dair // "YUNESKO-nun Konvensiyası". Paris, 2005-ci il. 12 səh.

5. "Mədəni özünüifadə müxtəlifliyinin qorunması və təşviqi haqqında" Konvensiyanın təsdiq edilməsi barədə Azərbaycan Respublikasinin Qanunu. Bakı, 2009

6. Niyaz Niftiyev Azərbaycanda Birgəyaşayış və Multikulturalizm, Bakı-2015, 407 səh.

7. Niyaz Niftiyev, Mətbuatda Multikulturalizm, Bakı-2017, 247 səh.

8. S.A.Əhədova Mədəniyyətlərin Qarşiliqli Əlaqələrində YUNESKO-nun rolu, Bakı 2014, 78 səh.

9. YUNESKO-nun beynəlxalq normativ aktları. Bakı, 1998.

10. Культурные права и проблемы связанные с их признанием. Сборник очерков, посвященный празднованию 50-ой годовщиной принятия Всеобщей декларации прав человека. Издательство ЮНЕСКО, 1997. Издательский дом Магистр, ЮНЕСКО, 2003.

11. Россия в диалоге культур М.Наука. 2010.

12. http://www.unesco.az

13. http://www.mfa.gov.az